


# "Otel otağı" Qazaxıstanda nəşr edilib

Xalq yazıçısı Anarın "Otel otağı" əsəri Qazaxıstanda işıq üzü görüb. Kitab "Türk Dünyası Ədəbiyyatı" seriyasından "Mərəkə baspası" nəşriyyatı tərəfindən nəşr edilib. Əsəri qazaxcaya Gülnaz Feyzulla çevirib. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, "Otel otağı" Xalq yazıçısının Qazaxıstanda çap edilən sayca dördüncü kitabıdır.

Bundan başqa Anarın "Qatardan qalan adam" hekayəsi Qazaxıstanın məşhur ədəbiyyat jurnalı olan "Jalın" jurnalında çap edilib.

**AYB.az**